**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ELMİN İNKİŞAFI FONDU**

---

Bakı şəhəri 13 iyun 2014-cü il

# Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun xaricdə elmi tədbirlərdə və qısamüddətli təcrübəkeçmədə iştirakı əhatə edən xüsusi layihələrin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2014-cü ildə 5-ci "Mobillik qrantı" müsabiqəsinin (EİF-Mob-5-2014-2(17)) keçirilməsi haqqında

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra - Elmin İnkişafı Fondu) Azərbaycan Respublikasında təbiət, dəqiq, texniki, humanitar və ictimai elmlər sahəsində elmi-tədqiqat işləri ilə məşğul olan alimlərin elmi fəaliyyətini stimullaşdırmaq və onlara xaricdə elmi tədbirlərdə və qısamüddətli təcrübəkeçmədə iştirak, Azərbaycanda alınmış elmi nəticələrin tanıdılması, təcrübə mübadiləsi və yeni əlaqələrin qurulması imkanı yaratmaq məqsədilə Elmin İnkişafı Fondunun xüsusi layihələrinin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2014-cü ildə 5-ci "Mobillik qrantı" müsabiqəsini (EİF-Mob-5-2014-2(17))

ELAN EDİR:

**Kiçik maliyyə həcmli (10 min manatadək) qrantların verilməsi yolu ilə aşağıdakı xüsusi layihələrin (XETİ və QMTK) maliyyələşdirilməsi:**

1. **XETİ** - Azərbaycandan olan alim və mütəxəssislərin xaricdə keçirilən nüfuzlu regional və beynəlxalq elmi tədbirlərdə elmi məruzələrlə iştirakının qismən və ya tam şəkildə maliyyələşdirilməklə təmin edilməsi;

2. **QMTK** - Azərbaycandan olan alim və mütəxəssislərin xaricdə qısamüddətli təcrübəkeçmə proqramlarında iştirakının qismən və ya tam şəkildə maliyyələşdirilməklə təmin edilməsi.

**Bu müsabiqə çərçivəsində qrant maliyyələşdirilməsinin cəmi həcmi 100 000 (yüz min) manat nəzərdə tutulmuşdur.**

**DİQQƏT!**

**Elmin İnkişafı Fondunun 2013-cü ildə 1-ci, 2-ci, 3-cü və 2014-cü ildə keçirilmiş 4-cü "Mobillik qrantı" müsabiqələrinin qalibi olmuş, həmçinin Fondun hal-hazırda yerinə yetirilən digər (pilot, fundamental-tətbiqi xarakterli və s.) layihələrində iştirak edən layihə rəhbərləri və icraçıları 5-ci "Mobillik qrantı" müsabiqəsində iştirak edə bilməzlər.**

**Cari müsabiqəyə yalnız 2014-cü il 01 OKTYABR – 31 DEKABR tarixləri arasında xaricdə keçiriləcək beynəlxalq elmi tədbirlərdə və qısamüddətli elmi təcrübəkeçmə proqramlarında iştirak etmək istəyən şəxslər ərizələrini təqdim edə bilərlər.**

"Mobillik qrantı" müsabiqəsində iştirak etmək istəyən iddiaçılar üçün elmi dərəcə və elmi ad, yaş və s. kimi məhdudiyyətlər qoyulmur.

Azərbaycandan olan alim və mütəxəssislərin xaricdə keçirilən nüfuzlu regional və beynəlxalq elmi tədbirlərdə elmi məruzələrlə iştirakının qismən və ya tam şəkildə maliyyələşdirilməklə təmin edilməsi üzrə qrant iddiaçılarının adıçəkilən tədbirlərdə **plenar, dəvətli və ya şifahi məruzələri** nəzərdə tutulmalıdır. Bu haqda təsdiqedici sənəd və ya dəvətnamə olmalı və müsabiqəyə təqdim olunan sənədlərə əlavə edilməlidir. "Divar" tipli məruzələr ("poster") və ya məruzəsiz iştiraklar üzrə təqdim edilmiş layihələr texniki ekspertiza mərhələsindən keçməyəcəkdir.

**Layihə üzrə smeta tərtib edilərkən səfər üzrə ən optimal və qənaətli yol ("ekonom" sinifli təyyarə, qatar, avtobus və gəmi səyahətləri) marşrutu və otellər seçilməlidir. Tədbirdə iştirakla bağlı qeydiyyat xərcləri, səyahət sığortası və viza alınması ilə bağlı xərclər smetada nəzərdə tutula bilər. Ezamiyyə xərclərinin 1 günlük norması "Ezamiyyə xərclərinin normaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 №-li Qərarı ilə tənzimlənir (bax: http://sdf.gov.az/qrant/qanunvericilik.html). Yuxarıda göstərilən xərclərdən hər hansı biri və ya bir neçəsi tədbirin təşkilat komitəsi tərəfindən ödənildikdə, bu haqda sənəd təqdim olunur və Elmin İnkişafı Fondu xərclərin yerdə qalan hissəsini ödəyir. Bu hala uyğun təqdim edilmiş layihələrə seçim zamanı üstünlük verilir.**

**Azərbaycandan olan alim və mütəxəssislərin xaricdə qısamüddətli təcrübəkeçmə proqramlarında iştirakı ilə bağlı xərclər smetasının tərtibində xaricdə elmi tədbirdə iştirakla bağlı əsas şərtlərdən (səyahət xərcləri, ezamiyyə xərclərinin 1 günlük norması) istifadə olunur. Təcrübəkeçmənin baş tutacağı təşkilatla bağlı xərclər olduğu halda, onlar smetada konkret göstərilməlidir. Bu xərclərin ödənilməsi həmin təşkilatla Elmin İnkişafı Fondu arasında bağlanan Müqavilə əsasında köçürmə yolu ilə həyata keçirilə bilər. Bir qayda olaraq, Elmin İnkişafı Fondu 1 (bir) ayadək olan təcrübəkeçmə proqramlarını dəstəkləyir. Təcrübəkeçmə ilə bağlı şərtlərdən asılı olaraq qismən maliyyələşdirilmə də baş tuta bilər.**

Müsabiqədə iştirak etmək üçün ərizələr, ərizəyə əlavə olunan müvafiq sənədlər və digər müşayiətedici materiallar **2014-cü il 17 iyun** tarixindən başlayaraq qəbul olunur.

Müsabiqədə iştirak etmək üçün ərizələrin, ərizəyə əlavə olunan müvafiq sənədlərin və digər müşayiətedici materialların qəbulu üçün son tarix **2014-cü il 31 iyul** saat 17:00-dır.

Elmin İnkişafı Fondu tərəfindən qrantların verilməsi üzrə 2014-cü ildə 5-ci "Mobillik

qrantı” müsabiqəsinin (EİF-Mob-5-2014-2(17)) nəticələrinin 2014-cü ilin **sentyabr ayında** açıqlanması planlaşdırılır.

Qrantların verilməsi üzrə müsabiqənin keçirilmə prinsipləri, müsabiqədə iştirak etmək üçün ərizələr, ərizəyə əlavə olunan müvafiq sənədlər və digər müşayiətedici materialların verilməsi və qeydiyyatı qaydaları, layihələrin ekspertizasının ümumi qaydaları, layihələrin həyata keçirilməsi şərtləri, müsabiqələrin xüsusiyyətləri də daxil olmaqla qrantların verilməsi üzrə müsabiqənin keçirilməsi qaydaları ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 25 iyun 2010-cu il tarixli Q-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları”nda (http://sdf.gov.az/qrant/qaydalar) tanış olmaq olar.

Müsabiqədə iştirak etmək istəyən şəxslərə “Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları” ilə tam tanış olduqdan sonra müvafiq ərizə və sənədləri tərtib etmələri tövsiyə olunur.

Qrantların verilməsi üzrə müsabiqədə iştirak etmək üçün ərizə və müvafiq sənədlər (Microsoft Word formatında) Elmin İnkişafı Fondunun internet saytının (http://sdf.gov.az/qrant/senedler/index.html) “Qrant müsabiqələri” bölməsindən əldə edilə bilər.

Bütün layihələr **Azərbaycan** dilində (2 nüsxə) tərtib edilməlidir. Müşayiətedici materiallar (məqalələrin, diplomların və digər sənədlərin surətləri, zəmanət məktubları və b.) isə 1 nüsxədə təqdim olunur.

Layihələr üç formatda (kağız üzərində, elektron məlumatdaşıyıcılarına yazılmış şəkildə və elektron variantın elektron ünvana göndərilə bilməsi üçün elektron fayllar şəklində) aşağıdakı üsullarla təqdim olunmalıdır:

1. Müsabiqədə iştirak etmək üçün layihə rəhbəri (qrant iddiaçısı) tərəfindən imzalanmış ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların A4 formatlı ağ kağızda çap olunmuş variantını (Azərbaycan dilində 2 nüsxə olmaqla) və elektron məlumatdaşıyıcılarına (CD, DVD və s.) yazılmış versiyasını birlikdə:

- Elmin İnkişafı Fondunun icraçı direksiyasının ünvanına **(AZ-1069, Bakı şəhəri, Atatürk prospekti, 48B)** (sifarişli üsulla) poçt vasitəsilə göndərmək yolu ilə:
- və ya Elmin İnkişafı Fondunun icraçı direksiyasının yuxarıda göstərilən ünvanda yerləşən **inzibati binasına** həftənin iş günlərində (bazar ertəsi – cümə) saat 10:00-dan 17:00-dək birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə (elektron-poçt göndərişi zamanı mümkün itmələrdən və adi poçt daşınması zamanı təsadüfi mexaniki zədələrdən yayınmaq üçün);

2. Müsabiqədə iştirak etmək üçün ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantını (Microsoft Word formatında elektron fayllarını) Elmin İnkişafı Fondunun **elektron-poçt ünvanına** (qrant@elmfondu.az) göndərmək yolu ilə (bu zaman elektron məktubun “mövzu” (“subject”) hissəsində aşağıdakı yazılışdan istifadə olunmalıdır: “EİF-Mob-5-2014- 2(17) - *Layihə rəhbərinin soyadı və adı - Elm sahəsinin adı*”).

**Elektron variantı təqdim olunmadığı halda, həmçinin Microsoft Word formatında olan Formalara özbaşına düzəlişlər edildikdə layihə birmənalı olaraq texniki ekspertiza**

**mərhələsindən keçmir.**

Ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantının kağızda olan variantına tam uyğun olmasına məsuliyyəti layihə rəhbəri daşıyır.

**Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan layihələr müsabiqənin texniki ekspertiza mərhələsindən qəti olaraq keçmir və elmi ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər geri qaytarılmır.**

Müsabiqədə iştirak məqsədilə, o cümlədən layihələrin ekspertizası mərhələlərində saxta sənəd, imza və məlumatların təqdim olunması layihənin elmi ekspertizadan kənarlaşdırılmasına səbəb olur.

Müsabiqədə iştirak etmək üçün ərizələrin və ərizəyə əlavə edilən müvafiq sənədlərin, Müsabiqələrin keçirilməsi Qaydalarının əldə olunması ilə bağlı problemlər yarandığı təqdirdə Elmin İnkişafı Fondunun icraçı direksiyası (Bakı şəhəri, Nərimanov rayonu, Atatürk prospekti, 48B) ilə birbaşa əlaqə saxlanılması tövsiyə olunur. Əlaqə telefonu: 563-61-11, elektron poçt ünvanı: qrant@elmfondu.az

Sualların elektron poçt ünvanına göndərilməsi təqdir olunur. Digər tərəfdən, sənədlərin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə məsləhət seminarlarının keçirilməsi nəzərdə tutulmuşdur. Bu barədə məlumat Fondun internet səhifəsində veriləcəkdir.

***Elmin İnkişafı Fondunun icraçı direksiyası***